

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

"2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI"

RÜBLÜK İCMAL

**Oktyabr 2015 – Yanvar 2016**

# TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

## Təhsil naziri M.Cabbarov London şəhərində Böyük Britaniyada təhsil alan azərbaycanlı tələbələrlə görüşmüşdür.



Yanvarın 18-də təhsil naziri M.Cabbarov Dünya Təhsil Forumunda iştirak etmişdir.

Forumda təhsil naziri Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamına istinad edərək, təhsil sistemində daxili islahatların, ikitərəfli və çoxtərəfli mübadilələrin təmin edilməsi, tədris sistemində davamlı inkişaf, eyni zamanda kurikulum və təkmilləşdirilmiş tədris metodologiyaların mübadiləsinin əhəmiyyətini vurğulamışdır.

Forumun ikinci günündə nazir "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Britaniyada təhsil alan azərbaycanlı tələbələrlə görüşmüşdür. Görüş çərçivəsində nazir tələbələrə forum haqqında məlumat verərək bildirmişdir ki, təhsil sahəsində əldə edilən nailiyyətlərin dünya



ictimaiyyətinə çatdırılması baxımından önəm daşıyır.

Daha sonra nazir görüşdə iştirak edən tələbələrlə ayrı-ayrılıqda tanış olaraq, onların təhsil aldıqları universitetlərdə qazandıqları təcrübə və biliklərə yiyələnmələri barəsində ətraflı məlumat almışdır. Eyni zamanda, tələbələrin təhsilləri ilə bağlı müraciətlərini dinləmiş, problemlərini öyrənmiş və suallarını cavablandırmışdır.

## Vyanada R.Behbudovun 100 illik yubiley mərasimi qeyd edilmişdir.

2015-ci ilin noyabrın 24-də Vyanada Azərbaycanın tanınmış bəstəkarı Rəşid Behbudovun 100 illik yubileyinə həsr olunan konsert təşkil olunmuşdur. Tədbirdə diplomatik korpusun nümayəndələri və soydaşlarımız iştirak etmişlər.

Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova



konsert iştirakçılarına Rəşid Behbudovun həyat və yaradıcılığı haqqında məlumat vermişdir. Dövlət Proqramı çərçivəsində İtaliyanın "La Skala" Akademiyasında təhsil alan Azər Rzazadə konsertdə R.Behbudovun repertuarına daxil olan mahnılar ifa etmiş, həmçinin Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini səsləndirmişdir. Onu fortepianoda Azərbaycanın görkəmli pianoçusu, xalq artisti Fərhad Bədəlbəyli müşayiət etmişdir.

***Berlində 20 Yanvar şəhidlərinin xatirəsi yad edilmişdir.***

Azərbaycanın Almaniyadakı səfirliyində 20 Yanvar faciəsinin 26-cı



ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir. Mərasim 20 Yanvar şəhidlərinin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsiylə başlamışdır. Anım tədbirində Azərbaycan XİN-in, müxtəlif siyasi, iqtisadi, elmi və mədəni dairələrin, diplomatik korpusun, Azərbaycan diasporunun nümayəndələri də iştirak etmişdir.

Tədbir iştirakçılarına xalqımızın qan yaddaşı olan 20 Yanvar hadisələri, eyni zamanda həmin dövrdə Dağlıq Qarabağda erməni separatçılığı barəsində məlumat verilmişdir.

Tədbirin rəsmi hissəsi bitdikdən sonra Dövlət Proqramı çərçivəsində Almaniyanın Hannover Musiqi, Media və Teatr Akademiyasında bakalavriat təhsil səviyyəsi üzrə təhsil alan tələbəmiz Nərmin Nəcəflinin ifasında Azərbaycan və Qərb bəstəkarlarının əsərlərindən ibarət anım konserti olmuşdur.

**"King's College London" Universitetində 20 Yanvarla bağlı təqdimat keçirilmişdir.**




Dövlət Proqramı çərçivəsində Britaniyanın "King's College London" ali təhsil müəssisəsində təhsil alan tələbələr tərəfindən Qanlı Yanvar hadisələrinə həsr olunmuş təqdimat keçirilmişdir.

Tələbələr üçrəngli bayraqlarımıza sarılaraq 20 Yanvara həsr olunmuş tədbirdə təbliğat işləri aparmış və həmin dövrdə xalqımızın yaşadığı tarixi anları tədbir iştirakçılarına kiçik təqdimat formasında çatdırmışlar. Tələbələr belə təbliğat tipli tədbirlərin keçirilməsini həmyerlilərimizin təşkilatlanması baxımından müsbət hal kimi qarşılayır.

Təqdimat mərasimindən sonra iştirakçılar tələbələrdən ölkəmizin tarixi, keçmişi haqqında məlumatlar almış və ölkəmizə maraq göstərmişlər.

***Kanadanın Toronto şəhərində "Azərbaycan günü" keçirilmişdir.***



Dövlət Proqramı çərçivəsində Toronto universitetində təhsil alan bir neçə Azərbaycanlı tələbələrdən ibarət qrup tərəfindən ölkəmizin tarixi, mədəniyyəti, mətbəxini təbliğ etmək üçün tədbir təşkil olunmuşdur.

Tədbir zamanı ölkəmizi təmsil etmək naminə tələbələr Azərbaycanın tarixi keçmişi, eləcə də xalqımızın tarixində əbədi iz qoymuş tarixi hadisələr barəsində təqdimat hazırlamış və əcnəbi tələbələrə nümayiş etdirmişlər. Tədbirin sonunda milli bayrağımızla xatirə şəkli çəkilmişdir.

**SONUNCU SƏNƏD QƏBULU**

***"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" müsabiqə üçün sonuncu qəbulu həyata keçirilmişdir.***



Dövlət Proqramı üzrə 2015/2016-cı tədris ilinə aid yekun statistika açıqlanmışdır. Belə ki, Proqramın müvəffəqiyyətlə başa çatmış sonuncu sənəd qəbulu ilində 373 nəfər tələbə xaricdə təhsil almaq hüququ qazanmışdır.

Ötən tədris ilki müsabiqədə əsas üstünlük bakalavriatdan sonrakı təhsil səviyyələrinə verilmişdir və ölkəmiz üçün prioritet müəyyən olunan iqtisadiyyat, mühəndislik, tibb, informasiya texnologiyaları sahəsində istər yüksək TQDK göstəricilərinə malik, istər beynəlxalq olimpiada iştirakçıları, istərsə də, müsahibə zamanı yüksək bilik, xarici dil hazırlığı nümayış etdirmiş 176 nəfər magistratura, 25 nəfər doktorantura, 70 nəfər rezidentura, 102 nəfəri isə baza ali tibb və bakalavriat təhsil səviyyələrində təhsil almaq hüququ qazanmışdır.

Dövlət Proqramı çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alması üçün Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları və ali təhsil müəssisələri mütəxəssislərinin iştirakı ilə seçimlər aparılmış və ümumilikdə 3558 nəfər dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmışdır. Böyük Britaniya, Türkiyə, Almaniya, Kanada, Niderland Krallığı tələbələrin təhsil almaq üçün ən çox seçdikləri ilk 5 ölkə olmuşdur.

İndiyədək Dövlət Proqramı çərçivəsində müvafiq məzun qeydiyyatından 1193 nəfər keçmişdir. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir.

## TƏLƏBƏLƏRIMIZIN UĞURLARI

### Dövlət Proqramının məzunu Milli Məclisin deputatı seçilmişdir.



Uğurlarından bəhs edəcəyimiz tələbələrimizdən biri də Dövlət Proqramı çərçivəsində ABŞ-ın Harvard Universitetindən dövlət idarəetməsi ixtisası üzrə məzun olmuş Vüsal Hüseynovdur. V.Hüseynov bakalavr təhsilini maliyyə ixtisası üzrə ADİU-da almışdır. Eyni zamanda ikinci bakalavr təhsilini BDU-da hüquq ixtisası üzrə almışdır.

V.Hüseynov 2006-2011-ci illərdə AR Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsində işləməyə başlamış və 2012-ci ildə Komissiyanın katibi vəzifəsinə təyin edilmişdir. Həmin ildən Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunda Azərbaycan Respublikasının nümayəndə heyətinə rəhbərlik etmişdir. 2015-ci ildə



Beynəlxalq Anti-Korrupsiya Akademiyasının İdarə Heyətinin 6 illiyinə üzvü seçilmişdir.

Tələbəlik illərindən V.Hüseynov ictimai aktiv gənc olmuş, ictimai təşkilatların tədbirlərində, layihələrində xüsusi aktiv fəaliyyəti ilə seçilmişdir.

2015-ci ilin Parlament seçkiləri zamanı 91 saylı Ucar Seçki Dairəsi üzrə ən çox səs toplayaraq AR Milli Məclisinin deputatı seçilmişdir. Biz də Təhsil Nazirliyi olaraq V.Hüseynovun uğurlarına sevinir və ona gələcək işlərində uğurlar arzu edirik.

### Avstraliyada təhsil alan tələbəmiz şahmat turnirində birincilik qazanmışdır.



Dövlət Proqramı çərçivəsində Avstraliyanın "La Trobe University" ali təhsil müəssisəsində nanotexnologiyalar ixtisası üzrə bakalavr təhsili alan İzzət Kənan Melburnda qrossmeyster norması üzrə III "Australian Masters" turnirində qalib gəlmişdir.

Melburn Şahmat Klubunun 150 illik yubileyinə həsr olunmuş turnirdə 34 zəka sahibi mübarizə aparmışdır. Kənan İsveçrə sistemi üzrə keçirilən və 11 turdan ibarət yarışda ölkəmizi təmsil etmişdir. Belə ki, şahmatçımız 11 oyundan 8,5 xal toplayaraq yarışın qalibi adını qazanmışdır.

Kənanın şahmat sahəsində uğurları hələ orta məktəb illərindən başlamışdır. O, “Təhsil” Respublika İdman Mərkəzinin Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Şahmat Məktəbinin yetirməsi olaraq dəfələrlə şahmat turnirlərində uğurlar qazanmışdır. Polşada keçirilən məktəblilərin Dünya birinciliyində 16 yaşadək oğlanlar arasında 2-ci yer, Bakıda keçirilən beynəlxalq turnirdə 18 yaşadək oğlanlar arasında 2-ci yer, Bolqarıstanda keçirilən yeniyetmələrin Avropa birinciliyi şahmat turnirində 2-ci yerin qalibi olmuşdur.

## Dövlət Proqramı çərçivəsində ilk dəfə olaraq antropologiya sahəsi üzrə xaricdə təhsil almaq hüququ qazanmış tələbə

Sevindirici haldır ki, ötən tədris ilində Dövlət Proqramı çərçivəsində ilk dəfə olaraq antropologiya sahəsi üzrə bir nəfər tələbə xaricdə təhsil almaq hüququ qazanmışdır.



İlkin Əliyev Avstraliya Milli Universitetində magistratura təhsil səviyyəsi üzrə təhsil alır. O, bakalavr təhsilini Qafqaz Universiteti Beynəlxalq Münasibətlər ixtisası üzrə almışdır.

Təhsil aldığı müddətdə Azərbaycan və digər ölkələrin dövlət qurumlarından qazandığı təqaüdlər hesabına ölkəmizi Türkiyə, Ukrayna, Rusiya, Moldova, Malayziya, Gürcüstan, Litva, İtaliya və başqa xarici ölkələrdə müxtəlif beynəlxalq elmi konfrans, forum və digər



proqramlarda təmsil etmişdir. O, ölkə daxilində, eləcə də xaricdə bəzi yerli və beynəlxalq tədbirlərin təşkilatçılığını etmişdir.

Universitet seçimi ilə bağlı İ.Əliyev bildirir ki, Milli Avstraliya Universitetinin nəyinki Avstraliya, hətta dünya üzrə ən sayılıb-seçilən antropoloji tədqiqat mərkəzlərindən birinə sahib olması, reytinqli dünya universitetləri sıralamasında dünya üzrə ilk 20-lik, sosial və siyasi fənlər üzrə ilk 10-luqda, Avstraliya universitetləri arasında isə 1-ci yerdə olması İlkinin universitet seçimini daha da asanlaşdırmışdır. Eyni zamanda antropologiya sahəsi ilə əlaqədar müxtəlif beynəlxalq simpozium və elmi konfranslara qatıldığına görə bu sahəyə marağı böyük olsa da, Dövlət Proqramının yaratdığı bu şansı bilik və bacarıqlarının daha əsaslı elmi köklərə dayanması üçün böyük fürsət olduğunu bildirmişdir. Sosial-mədəni antropologiya sahəsi üzrə ixtisaslaşmaq istəyən İlkin, magistr təhsil pilləsini müvəffəqiyyətlə bitirdikdən sonra Britaniyada Sosial Antropologiya sahəsi üzrə doktorantura təhsili almağı da gələcək planının tərkib hissəsi kimi görür.